# TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN İŞ ÜSULLARI

***Rəhimova Səbinə Rövşən qızı***
***"Cahan" körpələr evi-uşaq bağçasının metodisti***
*sabinarahimova74@gmail.com*

***Annotasiya***
*1-6 yaş dövrü uşaqlarda bacarıqların formalaşmasında təməli xarakter daşıdığı üçün xüsusi bilik və diqqət tələb edir. Pedaqogika və psixologiya elminə əsaslananaraq təşkil olunmuş öyrənmə prosesi uşağın hərtərəfli harmonik inkişafını mümkün edir.*
*Öyrənmə prosesində istifadə olunan iş üsulları elmi cəhətdən düzgün seçilməli və didaktik prinsiplər əsasında tətbiq olunmalıdır. Tədqiqatların nəticələri təsdiq edir ki, öyrənmə prosesinə uşaqyönümlü yanaşma uşağın hərtərəfli inkişafı, şəxsiyyət kimi formalaşması üçün əhəmiyyətli dərəcədə vacibdir. Çünki fərdin özünü və ətrafı dərk etməsi ona təqdim edilən mühit və şəraitin uşağın ehtiyacına uyğun qurulmasından asılıdır. Tərbiyəçi-müəllim təhsilalanını tanımırsa, onun ehtiyaclarını müəyyən edə və ona lazımi mühiti, şəraiti yarada bilməyəcək. Bu məqalənin məqsədi — məktəbəqədər təhsil səviyyəsində öyrənmə prosesində uşağın sevərək, aktiv iştirakını təşkil etmə strategiyasının düzgün qurulması yollarını müəyyənləşdirmək, iş üsullarının təlim prosesinə, uşaq inkişafına təsirini təhlil etmək və effektiv öyrənmə prosesinin praktiki tətbiq imkanlarını təhlil etməkdir.*
*Bu tədqiqat məqaləsində məktəbəqədər təhsil səviyyəsində təlimin təşkili zamanı istifadə olunan üsulların elmi-nəzəri əsasları və praktik əhəmiyyəti araşdırılır. Uşaqların yaş xüsusiyyətləri və inkişaf dinamikası nəzərə alınmaqla, interaktiv təlim üsullarının tətbiqi imkanları elmi əsaslarla təhlil olunur. Məqsəd təlimin keyfiyyətini və uşaqlarda öyrənməyə marağı artıran müasir yanaşmaları müəyyənləşdirməkdir. Məqalə pedaqoqlar üçün metodiki tövsiyələr və inkişaf istiqamətləri təqdim etmək baxımından əhəmiyyətlidir.*
*Məqalənin məqsədi məktəbəqədər yaş dövrü uşaqlar üçün daha maraqlı və effektli öyrənmə prosesinin hazırlanmasında tərbiyəçi-müəllimlərə dəstək olmaqdır. Araşdırmada Lev Vıqotskinin "proksimal inkişaf zonası", Con Dyunun təcrübə əsaslı təlim nəzəriyyəsi və humanist yanaşmalar əsas götürülərək təlimin təşkilinə dair tövsiyələr verilmişdir.*
***Açar sözlər:*** *Məktəbəqədər təhsil, təlim üsulu, fərdi xüsusiyyətlər, nəticə, interaktiv metod, oyun metodu, layihə metodu, pedaqoji nəzəriyyə, şəxsiyyətyönlü inkişaf,oyun, öyrənmə prosesi.*

## Problemin qoyuluşu:

Müasir təlim mühitində uşaqların öyrənmə prosesinə aktiv cəlb olunması, onların yaradıcı və tənqidi düşünmə bacarıqlarının inkişaf etdirilməsi əsas məqsədlərdən biridir. Bununla belə, bir çox təhsil müəssisələrində ənənəvi tədris metodlarına üstünlük verilir, bu da uşaqların passiv iştirakına, motivasiya əskikliyinə və məhdud inkişaf imkanlarına səbəb olur. Təlimdə istifadə olunan iş üsullarının düzgün seçilməsi və tətbiqi tədrisin keyfiyyətinə bilavasitə təsir göstərir. Bu mövzu təlimin səmərəliliyinin artırılması və uşaqların öyrənmə prosesində fəallığının təmin olunması baxımından vacibdir.

Mövzunun vacibliyi:
- İş üsulları fəal öyrənmə mühiti yaratmaq üçün əsas şərtdir.
- İş üsulları uşaqların sosial, emosional və koqnitiv inkişafını dəstəkləyir.

- Təlimdə yenilikçi və yaradıcı yanaşmaların tətbiqi zərurətə çevrilib.
- Pedaqoji məqsədlərə çatmaq üçün effektiv strategiyaların müəyyənləşdirilməsində əsas rol oynayır.

**Hipotez:**

Müxtəlif iş üsullarının məqsədyönlü və yaradıcı şəkildə təşkili uşaqların öyrənməyə olan marağını artırır, onların tənqidi düşünmə, ünsiyyət və əməkdaşlıq bacarıqlarını gücləndirir. Xüsusilə uşaqların çox sevdiyi oyundan istifadə təlimin effektivliyini artırır və hərtərəfli inkişafı stimullaşdırır. Təlim üsullarının imkanlarını dəyərləndirib, uşaqların fərdi xüsusiyyətləri, ehtiyacları və maraqları əsasında təlim məqsədinə uyğun seçilmiş iş üsulları öyrənməni hər uşaq üçün əlçatan edir.

**Giriş**

Müasir dövrdə 3–6 yaş arası uşaqları öyrənmə prosesinə cəlb etmək bir sıra səbəblərə görə daha çətin ola bilər. Bu yaş dövrü psixoloji, sosial və texnoloji dəyişikliklərin təsiri altında formalaşır və təlim-tərbiyə yanaşmalarının da uyğunlaşdırılmasını tələb edir. Bu səbəbləri araşdırdıqda uşaqların həvəslə öyrənmə prosesində iştirakını təşkil etmək üçün müxtəlif təlim üsullarının harda necə işə yarayacağını müəyyən edə bilirsən. Bəzi uşaqların öyrənmə prosesinə cəlb edilməsində rastlaşdığımız çətinliklərin mümkün səbəbləri:

- Diqqət və konsentrasiya çətinliyi: Müasir uşaqlar tez-tez vizual və texnoloji stimullara məruz qalır, bu da onların diqqətini uzun müddət cəmləməsini çətinləşdirir.
- Texnologiyanın təsiri: Planşet, telefon və televizor kimi cihazlar erkən yaşda uşaqların passiv öyrənmə vərdişlərini formalaşdırır, bu da aktiv və iştirakçı təlimə mane ola bilər
- Sürətli informasiya axını: Uşaqlar çoxlu məlumatla qarşılaşır, lakin bu məlumatların emalı və mənimsənilməsi üçün kifayət qədər zaman və strukturlaşdırılmış mühit olmaya bilər.
- Sosial bacarıqların zəifləməsi: Virtual ünsiyyət real sosial əlaqələrin yerini aldıqda, uşaqların komanda işi və empati kimi bacarıqları zəifləyə bilər
- Fərdi inkişaf fərqlilikləri: Hər bir uşağın inkişaf tempi və maraqları fərqlidir. Bu yaşda aparıcı fəaliyyət oyun olsa da, hər uşağın oyuna yanaşması və öyrənmə tərzi fərqli ola bilər

Müasir nəslin öyrənmə prosesinə cəlb edilməsi üçün daha yaradıcı, fərdi yanaşmalar, texnologiyanın balanslı istifadəsi və sosial-emosional inkişafı dəstəkləyən metodlar tələb olunur.

**Tədqiqat sualları:**

1. Məktəbəqədər təlimdə hansı iş üsulları var?
2. Uşaq şəxsiyyətinin hərtərəfli inkişafının təşkilində iş üsullarının effektiv tətbiqi yolları hansılardır?
3. Müasir pedaqoji nəzəriyyələr bu metodların tətbiqini necə əsaslandırır?

**Tədqiqatın məqsədi:**

Məqalənin məqsədi məktəbəqədər təhsildə istifadə olunan müxtəlif iş təhlil etmək, onların pedaqoji səmərəliliyini müəyyənləşdirmək və müasir təlim mühitində uşaqların aktivliyinə necə təsir etdiyini araşdırmaqdır.

Öyrənmə prosesində istifadə olunacaq iş üsullarını elmi cəhətdən düzgün seçmə və didaktik prinsiplər əsasında tətbiqi yollarını araşdırıb nəticələrlə paylaşmaqdır. Müasir pedaqoji nəzəriyyələrin bu metodların tətbiqini necə əsaslandırdığını araşdırıb praktik nöqteyi-nəzərdən təhlil etmək.

Təlimin təşkilində üsulları seçdikdə diqqət edilməsi vacib olan məqamlar.

- Təlim strategiyasının uşağın yaş, fərdi, həmçinin digər xüsusiyyətlərinə uyğunluğu.
- Təlim üsullarının uşaqların fərdi təlim üslubuna (üç əsas təlim üslubu mövcuddur: vizual, eşitmə və kinestetik ) uyğunluğu.
- Cari mövzuda qrupun real vəziyyətini nəzərə alaraq təlimin differensiallaşdırılması imkanlarını dəyərləndirərək əlverişli üsul seçiminə (bu zaman pedaqoqlar uşaqlara onların hazırlıq səviyyələrinə uyğun tapşırıqlar verir). Qrupdakı müxtəlif bacarıq səviyyələri üçün əlverişli olmasına.

## Strategiya






**1-3 yaşlı uşaqlarla** iş zamanı oyun iş üsulundan istifadə edilə bilər: süjetli-rollu oyunlar, hərəkətli, didaktik oyunlar. Oyun iş üsulu bütün yaş dövrləri üçün effektivdir.

**3-6 yaşlı uşaqlarla** iş zamanı geniş imkanları olan əqli hücum, tap-tapmaca, nağıletmə, müzakirə, şaxələndirmə (klaster), problemli vəziyyət, oyunlar, suallar, söz assosiasiyası kimi təlim üsullarından istifadə edildikdə müsbət nəticələr əldə etmək mümkündür.

## 1. Oyun təlim üsulunun sxemləşdirilmiş izahı:




Erkən yaş dövründə (1-3 yaş) sökülüb-yığılan və hərəkətli oyuncaqlarla oyun (əşyəvi-manipulyativ fəaliyyət); ünsiyyətin qurulması; böyüklərin rəhbərliyi altında

birgəfəaliyyət; özünəxidmət əməyi və məişət əşyaları ilə fəaliyyət; musiqinin, nağılın, şeirin, şəkillərin məzmununun qavranılması məqsədilə təşkil edilən fəaliyyət; hərəki fəallığını təşkil edərək fəaliyyət növləri üzrə uşaqların inkişafını təmin etmək üçün oyun üsulu ən effektiv sayılır.

Bu dövrdə uşaqlarla müstəqil fəaliyyətin müxtəlif növlərinin təşkili zamanı oyun onların gümrah davranışını, emosional əhvali-ruhiyyəsini təmin edir. İkinci ilin əvvəlində oyuncaqlarla oyun və əyləncələr təşkil etmək vacibdir. Oyun üsulunda fəaliyyətlər zamanı oyuncaqlarla oyunların təşkili uşağın sensor və hərəki fəaliyyətini inkişaf etdirir, sevimli (üstünlük verilən) oyuncaqların hesabına əhatəsi genişləndirilir, oyun prosesində uşaqların lüğəti hərəkət və fəaliyyət bildirən sözlər hesabına zənginləşir.

Oyun vasitəsilə uşaqlar fikirlərini və başa düşdüklərini ifadə edirlər. Onlar problemlərin həlli, sosial oyunlar və ünsiyyət zamanı bacarıqlarını tətbiq edirlər. Oyun təcrübələri uşaqların kommunikativ, idraki, motor bacarıqlarının olmasından xəbər verir. Öz bacarıqlarından xəbərdar olan və oyunlarda axtarışı sevən uşaqlar hər hansı problemin həllini tapmaqda daha yaxşı nəticə göstərirlər. Bu istiqamətdə aşağıdakı işlərin aparılması zəruridir:

- oyun fəaliyyətinin formalaşdırılması;
- fərdi oyunlardan birgə oyuna keçidin təmin olunması;
- emosional reaksiya üçün şəraitin təşkil edilməsi, oyunda iştirak etmək arzusunun yaradılması;
- müxtəlif oyun növlərinin mənimsənilməsinə yardım edilməsi;
- müxtəlif oyun növlərində oyuncaqların və digər əşyaların istifadə üsullarının öyrədilməsi.

3-5 yaşlı uşaqlarda oyunda ətraf aləmin dərk edilməsi üçün uşağın şəxsi təcrübəsinin oyuna (təsvir olunan vəziyyətə) köçürülməsi imkanı; oyun məqsədlərinin qoyulması, oyun qaydalarını razılaşdırmaq və ona riayət etmək bacarıqlarının formalaşması; uşağa məqsədyönlü mübarizə imkanlarının verilməsi; uşaq tərəfindən oyun rollarının yerinə yetirilməsi, müstəqil şəkildə qaydaların müəyyən olunması və riayət edilməsi, hərəkət vəziyyətlərinin, insanların oyun və real qarşılıqlı fəaliyyət vəziyyətlərinin müqayisəsi; mövqelərin dəyişməsi ilə böyüklərin və uşaqların birgə oyununun təşkili; oyun fəaliyyətinin mənimsənilməsi, uşağın xoş əhvalının və özünü reallaşdırmasının dəstəklənməsi onun hərtərəfli inkişafına zəmin yaradır.

**1.1. <u>Yaradıcı oyunlar:</u>** Öz rolunu adlandırmaq, oyunçuların yerini, hadisələri sözlə ifadə etmək ("Bu dənizdir", "Bu gəmidir", "Gəmi sehrli adanın yanına üzür"). Oyunda süjetin şərti hissəsinin "elə bil, sanki, guya ki fəndindən istifadə edərək oynanılması ("Elə bil, biz kosmosa uçduq, indi isə Yerə qayıdırıq"). Əldə olan materiallardan istifadə edərək kostyumlar geyinmək, onlara detallar fikirləşmək. Oyun obrazının ifadəli çatdırılmasına çalışmaq (hərəkət, mimika, intonasiya vasitəsilə).

*Səhnələşdirilmiş tamaşalarda* sərbəst şəkildə və ya müəllimin köməyi ilə oyun səhnəsini təyin etmək (pərdə və ya şirma ilə ayırmaq), oyun şəraitini yaratmaq (sadə dekorasiyalar hazırlamaq: evlər, ağac siluetləri, yol düzəltmək), öz hərəkətlərini digər

“artistlər”in hərəkətləri ilə tutuşdurmaq uşaqlarda yaradıcı təfəkkürü, müşahidə etmə, diqqət etmə bacarıqlarını inkişaf etdirir.

*Rejissor oyunlarında* uşaqlar müxtəlif personajlar adından danışır və hərəkət edir, oyuncaqların hərəkətini ifadələr ilə uyğunlaşdırır. Oyun obrazına görə danışmaq, mahnı oxumaq, şeir demək kimi fəaliyyətlər təşkil edirlər.

*İmitasiya-oyunlarında* oyun obrazlarını ifadəli təsvir edir, onlara xas olan hərəkətləri imitasiya edir, mimika və jestlərdə müxtəlif emosional vəziyyətləri çatdırırlar.

Məktəbəqədər yaşın sonunda uşaq təxəyyülündəki oyun süjetini yaradıcı cəhətdən inkişaf etdirməlidir, sözlə ifadə etməlidir (sözlü oyunu fikrində canlandırması). Məsələn: «Biz aya necə səyahət edə bilərik?“ ...

**Yaradıcı oyun növü olaraq süjetli-rollu oyunlar -** hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul uşaqlara hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə baxmaq imkanı verir. Oyun prosesində uşaqlar rola girir, mövcud vəziyyəti görürlər. Tərbiyəçi-müəllim ilə birgə fəaliyyət göstərir, tanış süjetə yeni epizodlar qoşur, böyüklərın köməyi ilə öz oyunu üçün oyuncaqlar seçirlər. Tərbiyəçi-müəllim suallar soruşmaq yolu ilə oyunu inkişaf etdirməyi bacarır. (“Gəlincik yedi. Sonra o nə edəcək?”, “Salfet haradadır?”, “Gəlincik yatmaq istəyir?” və s.). Təlim prosesinə belə oyun elementlərinin gətirilməsi onun maraqlılığını, uşaqların yaradıcı fəaliyyət göstərməsi imkanlarını genişləndirir:

- ✓ oyuncaq tikinti materiallarından (böyük və kiçik ölçülü plastmas kərpiclər) istifadə edərək süjetli oyunun inkişafı üçün tikinti quraşdırmağa həvəs göstərir;
- ✓ oyun prosesində müəyyən rola uyğun hərəkətlər (ananın və ya atanın, həkimin, sürücünün rolunu ifa edir, tanıdığı heyvanların səsini və hərəkətlərini təqlid edir və s.) edir.

**Təlim üsulunun praktik nümunəsi:**

- ✓ **Motivasiya** - Tərbiyəçi-müəllim və ya uşaq real həyatdan tanış bir vəziyyət danışır: məsələn, “Gəlincik xəstələndi” (Jan Piaje: Tanış süjetlər uşağın idrak şəbəkəsini aktivləşdirir).
- ✓ **Süjetin qurulması** - Uşaqlar seçilmiş vəziyyətdə rollara girirlər - həkim, ana, ata, xəstə və s. (Vıqotski: Sosial qarşılıqlı təsir “yaxın inkişaf zonasını” stimullaşdırır).
- ✓ **Rollu oyun fəaliyyəti** - Materiallar ilə dekorasiya edir, uşaqlar vəziyyəti oynayır və hadisəyə yeni epizodlar əlavə edir (Bruner: Təlim prosesində kontekst və rol vasitəsilə anlam qurulur).
- ✓ **Tərbiyəçi-müəllim müdaxiləsi** – Tərbiyəçi-müəllim lazım gələrsə, suallarla oyunun gedişinə istiqamət verir (Sokrat metodu: Sualvermə tənqidi təfəkkürün inkişafına kömək edir).
- ✓ **Refleksiya və müzakirə** - Oyun bitdikdən sonra uşaqlarla birlikdə nəticələr müzakirə olunur, hisslər paylaşılır (Metakognisiya: Uşaqlar öz düşüncələrini şərh etməklə reflektiv düşünməyi öyrənirlər).

**Təcrübədən qeydlər və intensivlik:**

- ✓ Oyuncaqların seçimi: Uşaqlar öz təxəyyüllərinə əsaslanaraq oyun üçün fərqli əşyalar seçir.
- ✓ Səhnə quruluşu: Tikinti kərpicləri və rəsmlərlə xəstəxana, məktəb, ev kimi mühitlər yaradılır.

- ✓ Rol davranışları: Həkim müayinə edir, ana narahat olur, uşaq təsvir edir, heyvan səsləri təqlid olunur.
- ✓ Yeni epizodlar: “Həkim dərman verdikdən sonra gəlincik yatağa uzanır, dostları ona baş çəkməyə gəlir…”

**Elmi təhlil və yanaşma:**

- ✓ Konstruktiv təlim yanaşması: Uşaq bilikləri real süjet kontekstində qurur.
- ✓ İnteraktiv öyrənmə modeli: Oyunda iştirak edərək uşaq həm sosial, həm də emosional yönləri öyrənir.
- ✓ Təfəkkür tiplərinin inkişafı: Rol dəyişimi, problemə müxtəlif aspektdən baxmaq və həll yolları yaratmaq bacarığı formalaşır.
- ✓ Sosial-emosional öyrənmə: Uşaq başqalarının hisslərini, motivasiyasını dərk etməyi öyrənir.

**Təcrübədən nümunə:** Nümunə olaraq verilmiş şəkildə “Cahan” körpələr evi uşaq bağçasında orta qrupda uşaqların “rollu süjetli oyun” zamanı seçdikləri fəaliyyət mərkəzində istədikləri peşələri təqlid edirlər. Təcrübə zamanı “Cahan” körpələr evi–uşaq bağçasının orta qrupunda aparılan müşahidələr göstərdi ki, uşaqlar “rollu-süjetli oyun” fəaliyyətində **yaradıcılıq, sosial qarşılıqlı əlaqə və emosional ifadə bacarıqlarını** fəal şəkildə nümayiş etdirirlər. Oyun zamanı uşaqlara müxtəlif peşə rollarını (məsələn, həkim, müəllim, satıcı, aşpaz və s.) təqlid etmək imkanı yaradılmışdır. Onlar özləri **vəsaitləri seçmiş**, **rolları bölüşdürmüş** və süjet xətti isə **spontan, yəni uşaqların təxəyyül və həyat təcrübəsinə əsaslanaraq** oyun gedişində formalaşmışdır.

Bu proses **L.S.Vıqotskinin** “yaxın inkişaf zonası” konsepsiyasına uyğundur. Belə ki, uşaq oyunda real həyatın sosial münasibətlərini simvolik formada canlandıraraq, **mövcud inkişaf səviyyəsindən bir pillə yuxarıda** fəaliyyət göstərir. Rollu oyun zamanı uşaq öz sosial təcrübəsini modelləşdirir, böyüklərin davranış formalarını dərk edir və onları fərdiləşdirilmiş şəkildə təkrarlayır.

Bundan əlavə, **J.Piajenin koqnitiv inkişaf nəzəriyyəsinə** görə bu yaş dövründə uşaq **oyun** vasitəsilə əşyalar və hadisələr arasında əlaqə qurur, bu da **idrak çevikliyinin** və **məntiqi düşünmənin** inkişafına şərait yaradır. Uşaqların ssenarini spontan şəkildə qurması onların **təxəyyülünün müstəqilliyini** və **problem həll etmə bacarıqlarını** stimullaşdırır.

Eyni zamanda “oyun öyrənmənin təbii formasıdır” tezisinə əsaslanaraq deyə bilərik ki, bu cür yaradıcı oyunlar uşaqlara **dil bacarıqlarını, ünsiyyət mədəniyyətini, sosial qaydaları və emosional özünütənzimləməni** təcrübə yolu ilə mənimsəməyə imkan verir. Uşaqların real həyatdan gətirdikləri elementlər isə onların **özünüdərk**, **empatiya** və **ictimai məsuliyyət hissinin** formalaşmasına xidmət edir.

Nəticə etibarilə, müşahidə edilən bu yaradıcı oyun nümunəsi sübut edir ki, **spontan rollu-süjetli oyun** məktəbəqədər yaşlı uşaqlarda həm **koqnitiv**, həm də **emosional-sosial inkişafın inteqrasiyasını** təmin edən mühüm pedaqoji vasitədir.





**1.2. Qaydalı oyunlar** - Qaydalı oyun müəyyən şərtlərə tabe olduğu üçün uşaqlar onu böyüklər vasitəsi ilə öyrənirlər. Oyunlar uşaqlara davranış normalarına əməl etməyi, əməkdaşlıq qurmağı öyrədir, həyatda rast gələn digər qaydaların əhəmiyyəti barəsində təsəvvür yaradır. Qaydalı oyunlar zamanı uşaqların bilikləri artır, möhkəmlənir və onların şəxsi təcrübəsi zənginləşir. Bu səbəbdən qaydalı oyunlar təlimdə çox səmərəlidir. Qaydalı oyunun strukturunun (oyun tapşırığı, qaydalar, oyun fəaliyyəti, nəticə) ən əsas komponenti - qaydalardır.
Qaydalı oyunlar **didaktik və mütəhərrik** oyun növlərinə ayrılır.

➢ **Hərəkətli oyunlar** - Sadə məzmunlu hərəkətli oyunlardan istifadə edilir. Bu zaman oyunu əvvəlcə kiçik qruplarla, sonra isə birgə təşkil etmək məqsədəuyğundur. Mütəhərrik oyunlar uşaqların hərəki fəallığını təmin edir. Milli hərəki oyunlar, yarışlar və s. bu növə aiddir. Uşaqlara müəyyən hərəkətləri – topu tutmaq, yoldaşa çatmaq, ritmik hərəkətləri təkrar etmək kimi tələblər qoyulur və s. Didaktik elementli mütəhərrik oyunlar da bu növə aiddir və bu zaman uşaqların, nəinki hərəki, həm də idraki fəallığı təmin edilir.
Hərəkətli oyunlar uşaqların fiziki, idraki və sosial inkişafına yönəlik mühüm bir təlim vasitəsidir. Uşaqlar oyun fəaliyyəti zamanı aktiv fiziki hərəkətlər edərək öz motor bacarıqlarını inkişaf etdirirlər. Didaktik məqsədlərlə istifadə edilən mütəhərrik oyunlar uşaqların diqqətini, yaddaşını və düşünmə qabiliyyətini artırır. Hərəkətlərin inkişafı ilə bərabər idraki stimullaşdırma da baş verir. Kiçik qruplarla başlayan, sonra isə birgə təşkil edilən oyunlar uşaqlarda əməkdaşlıq və ünsiyyət bacarıqlarını gücləndirir. Sosial qarşılıqlı əlaqə yaranır. Milli oyunların tətbiqi isə uşaqların milli mədəniyyətə marağını artırmaqla yanaşı, vətənpərvərlik hissini də formalaşdırır.
Tədris prosesində bu oyunların həyata keçirilməsi aşağıdakı formada aparıla bilər:

- **Sadə məzmunlu mütəhərrik oyunlar:**
  - Tapşırıq: "Topu tut", "Yoldaşa çat", "Ritmə uyğun tullan"
  - Qrup işi: Əvvəlcə 3–5 nəfərlik kiçik qruplarla, sonra ümumi iştirakla icra edilir.
  - Məqsəd: Uşaqların əsas hərəki bacarıqlarını formalaşdırmaq

- **Milli hərəkətli oyunlar və yarışlar:**

- Misallar: "Bənövşə", "Qaç-tut", "Yaylıq atdı"
- Effekt: Mədəni kodlara uyğun davranışların təşviqi, birlik və yarış ruhunun inkişafı.

**Didaktik elementli mütəhərrik oyunlar:**
- Tapşırıq nümunəsi: "Rəqəmi tap və atla", "Hərfləri seç və qaç", „Qirmizi lenti kim tez götürdü?“
- İdraki faydası: Uşaqlar həm öyrənir, həm də hərəkət edir
- Kombinasiya: Həm fiziki, həm də elmi-sosial bacarıqların paralel inkişafı.

Tövsiyə: Bu oyunların pedaqoji prosesə inteqrasiyası zaman uşaqların inkişaf səviyyəsi nəzərə alınmalıdır. Həm fərdi, həm qrup yönümlü strategiyaların tətbiqi uğurlu nəticələr verir. Uşaqların marağını daima stimullaşdırmaq və onları təşviq etmək vacibdir.

➢ **<u>Didaktik oyunlar -</u>** Oyuncaqlar və stolüstü çap oyunları uşaqların inkişafı üçün mühüm vasitədir. Belə oyunlar uşaqların diqqətinin, təfəkkürünün, qavrayışının, təxəyyülünün, kiçik motor hərəkətlərinin inkişafını təmin edir. Oyuncağı hissələrə ayırmaq və yığmaq üzrə oyunların təşkili məqsədəuyğundur.

Bir neçə əlamətə görə əşyaların müqayisəsi üzrə oyunlar, müxtəlif əsaslara görə sıralarının təyin olunması, əhəmiyyətli əlamətlərə görə obyektlərin qruplaşdırılması (canlı-cansız, real-fantastik, ev heyvanları-vəhşi heyvanlar). Təsvirə görə əşyaları tapmaq üzrə oyunlar («Tap, nə fikirləşmişəm»; «Sual-cavab»).

Tamın hissələrdən düzülməsi (10-12 hissə). Sxem, model, plan, şərti işarə, siqnallar üzrə bələdləşmə ilə bağlı oyunlar («Evə yolu tap», «Sxem üzrə xəzinə tap»).

Yoxlama, sınaq hərəkətlərin həyata keçirilməsi üzrə oyunlar («Səhvi tap», «Kontrolçu», «Fərqləri tap»). Nitqi oyunlar. Xalq oyunları («Bağban», «Boyalar»). Qadağan olunmuş hərəkət və qaydalarla oyunlar («Qara və ağ», «Bəli-xeyr»). Müxtəlif loto növləri. Əqli inkişaf etdirici oyunlar: krossvordlar, tapmacalar, labirintlər, domino, mozaika və s.

Oyun üsulundan istifadə zamanı uşaqlarla şən və səmərəli oynamaq üçün qeyd olunmuş tövsiyələri diqqətdə saxlasanız öyrənmə prosesi səmərəli keçər:
- Uşaqların fəaliyyətində oyun əməliyyatının sayı yaş səviyyəsindən asılı olaraq seçilməlidir. Məsələn, 5 yaşlı uşaqlarda 4 oyun əməliyyatından (halqasından) az olmaması məqsədəuyğundur.
- Uşaqları oyunla tanış etdiyiniz zaman qaydaları anlaşıqlı şəkildə izah edin və əyani şəkildə göstərin.
- Oyunun gedişində uşaqları müəyyən olunmuş norma və qaydalara əməl etməyə sövq edin.
- Könüllülük prinsipinə əməl etməklə yanaşı, bütün uşaqların oyuna cəlb olunmasına şərait yaradın.
- Oyun seçimi zamanı uşaqların sayını və onların imkanlarını nəzərə alın.
- Oyun zamanı uşaqlarda mehriban əhval-ruhiyyə, əməkdaşlıq münasibətlərinin formalaşmasına dəstək göstərin.

Tullantı materiallarından bir çox oyun vəsaiti hazırlamaq mümkündür. Bu prosesi uşaqlarla birlikdə etdikdə nəticə daha effektiv olur.

„Cahan“ körpələr evi uşaq bağçasında layihə çərçivəsində valideyn, uşaq, bağça əməkdaşlığı ilə oyun vəsaitləri hazırlandı. Məsələn, mətbəx kağızı bitdikdən sonra rulonlardan istifadə edərək müxtəlif inkişafetdirici oyun vəsaiti hazırlandı. Təqdim olunan oyun vəsaitində məntiqi və riyazi bacarıqlar və rənglərin müqayisəsi istiqamətində fəaliyyətlər mümkündür.




- **Müxtəlif materiallarla tədqiqat oyunları**

**Su, buz, qar ilə oyunlar.** «Suyu təmizləyək» (suyun müxtəlif qatışıqlardan fərqli filtrlər vasitəsilə (kağız, tənzif) təmizlənməsi). «Rəng oyunu» (rəngli su düzəltmək və müxtəlif nisbətdə rənglərin qatışığından yeni rənglər əldə etmək). «Kristallar yetişdirək» (dolğun duz məhlulu düzəltmək və suyun buxarlanması nəticəsində duz kristalları əldə etmək). «Sehirli duz» (budaqları duzlu suya salıb duz kristalları əldə etmək). «Rəngli buz dənəcikləri» (rəngli suyu müxtəlif formalı qablara tökmək və dondurmaq).
Məsələn, aşağıda görüntüsü təqdim olunan təcrübə «Vulkan püskürməsi» təcrübəsidir. 193 saylı t.o.m-lə əməkdaşlıq edərək müxtəlif təcrübələr vasitəsilə uşaqların öyrənmə həvəslərini artırırıq. Kimya müəllimәsi Kəmalə Süleymanovanın peşəkar dəstəyi ilə təcrübələr vasitəsilə uşaqların araşdırma, müşahidə, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi bacarıqlarını inkişaf etdiririk.




- **İşıqla oyunlar.** «Günəş dovşanları» (divarda uşaqlar bir-birinin günəş dovşanını tutmağı çalışırlar), «Fənərlə axtarış» (qaranlıq otaqda fənərlə itmiş əşyanı tapmaq), «Rəngli siqnallar» (uşaqlar fənərin işığının necə rəngli olmasını

fikirləşirlər), «Kölgələr teatrı» (divarda əllər vasitəsilə müxtəlif heyvanların kölgələrini etmək), «Şamla rəsm» (müəllim ilə birgə kağız üzərinə mum tökmək, sonra isə üzərindən boya ilə rəngləmək).





2. **Əqli hücum -** birgə səy, məhdud vaxt, problemin bir neçə həllinin işlənib hazırlanması, bütün ideyaların toplanması, təməl biliklərin fəallaşdırılması, fikirlərini sərbəst ifadə etmə imkanı, fikir müxtəlifliyinin labüdlüyünü anlama, problemli situasiyada həll yollarını tapmaq, bütün məşğələlərdə istifadə oluna bilir, təlim fəaliyyətini stimullaşdırır kimi xüsusiyyətləri var
   - **Nümunə:**
   - ✓ **Tərbiyəçi-müəllim qrupa sual verir:** "Uşaqlar, ətraf mühitin çirklənməsi nə deməkdir və biz onu necə təmiz saxlaya bilərik?"
   - ✓ **Əqli hücum mərhələsi:** Uşaqlara fikir söyləmək üçün məhdud vaxt verilir. **Qayda:** Hər fikir qiymətlidir, heç bir fikir tənqid olunmur. Uşaqlar aşağıdakı kimi müxtəlif ideyalar irəli sürə bilər:
     - "Zibili yerə atmamaq";
     - "Kağızları yenidən istifadə etmək";
     - "Ağac əkək";
     - "Heyvanlara kömək edək";
     - "Su israf etməyək".
   - ✓ **Fikirlərin qruplaşdırılması:** Müəllim uşaqlarla birlikdə oxşar ideyaları bir yerə toplayır (məsələn, tullantıların azaldılması, təbiəti qoruma və s.).

3. **<u>Problemli vəziyyət</u> -** Bu üsul tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir. Müəllim əvvəlcədən problemi və müzakirə üçün sualları hazırlayır. Uşaqlar 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət təsvir olunmuş vərəqlər uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra qrupda ümumi müzakirə aparılır.
   - **Nümunə:** "Parkda oynayan uşaqlardan biri digər uşağın oyuncağını icazəsiz götürür. Uşaqlar arasında anlaşılmazlıq yaranır. Sizcə bu vəziyyətdə uşaqlar necə davranmalıdır?"

- İşin təşkili:

- ✓ **Tərbiyəçi-müəllimin hazırlığı:** Tərbiyəçi-müəllim problemli situasiyanı şəkildə təsvir edir və ona dair iş vərəqləri hazırlayır.
- ✓ **Qrupun təşkil olunması:** Uşaqlar 4-5 nəfərlik qruplara bölünür.
- ✓ **Təqdimat materialları:** Hər qrupa təlim məqsədinə uyğun iş vərəqləri təqdim olunur.
- ✓ **Qrup işi**: Uşaqlar problemi müzakirə edir və mümkün həll yollarını araşdırırlar.
- ✓ **Qrup müzakirəsi:** Hər qrup fikirlərini təqdim edir, müəllim uşaqlara suallar verir, digər qruplardan əlavə fikirlər alınır.

- **Elmi əsaslandırma:**

Bu metod konstruktivizm nəzəriyyəsinə əsaslanır. Jan Piaje və Lev Vıqotski kimi alimlərin fikrincə uşaq təcrübə yolu ilə öyrənir, ziddiyyətli vəziyyətlər biliyin yenidən qurulmasına səbəb olur (Piaje), sosial qarşılıqlı təsir və əməkdaşlıq uşağın öyrənməsini gücləndirir və qrup müzakirələri "yaxın inkişaf zonasını" aktivləşdirir (Vıqotski).

4. **Suallar** - Uşaqların idrak fəallığının artırılmasında böyük rol oynayır. Sualların sayının 4-5 arasında olması məqsədəuyğundur. Bütün üsullarla bağlıdır. Təlim, oyun, müsahibə, müzakirə, diskussiya və s. zamanı aydınlaşdırıcı, yoxlayıcı, istiqamətləndirici suallardan istifadə etmək səmərəlidir. Sualların qoyuluşu tənqidi təfəkkürün inkişafına doğru yönəldilməli, məntiqi ardıcıllıq gözlənilməli, mövzu və məzmun ilə bilavasitə əlaqəli olmalıdır.

**Nümunə:**

- ✓ **Təlim mövzusu:** "Ev heyvanları və onlara qayğı"
- ✓ **Təlim məqsədi:**

- Heyvanları xüsusiyyətlərinə görə qruplaşdırır;

- Heyvanlarla düzgün davranış bacarığı nümayiş etdirir;

- Canlıları qorumaq, mühafizə etmək, qulluq etmək, qiymətləndirmək kimi bacarığı nümayiş etdirir.

- ✓ **4–5 məqsədyönlü sual:**

**Aydınlaşdırıcı sual** - "Sizcə ev heyvanı nədir? Nə üçün insanlar ev heyvanı saxlayırlar?"

**Yoxlayıcı sual** - "Ev heyvanlarına baxmaq çətin ola bilərmi? Nəyə görə?"

**İstiqamətləndirici sual** - "Əgər sizin balaca bir itiniz olsaydı, siz ona necə qulluq edərdiniz?"

**Əlaqələndirici sual** - "Heyvanlara qarşı yaxşı davranmaq niyə vacibdir? Başqa canlılara necə yanaşmalıyıq?".

İstifadə olunan təlim üsulu uşaqlarda idrak fəallığını stimullaşdırmaq, tənqidi təfəkkürü və məntiqi ardıcıllığı inkişaf etdirmək, mərhəmət və məsuliyyət hissini formalaşdırmağa imkan yaradır.

- **Elmi əsaslandırma:**

- Sual əsaslı təlim konstruktiv yanaşmaya uyğun olaraq uşağın öyrənməsini aktivləşdirir (Piaje).
- Vıqotskiyə görə suallar "yaxın inkişaf zonası"nı hərəkətə gətirərək uşağın bildiklərini daha dərindən mənimsəməsini təmin edir.
- Sualların məntiqi ardıcıllıqla verilməsi uşağın düşünmə strukturunu möhkəmləndirir və problemlərə kompleks yanaşma bacarığı formalaşdırır.
- Blum taksonomiyasına əsasən bu suallar aşağıdan yuxarıya doğru idrak səviyyələrini – bilik, anlama, tətbiq, təhlil və qiymətləndirməni əhatə edir.

5. **Söz assosiasiyası -** bu üsuldan hər hansı bir mövzunun öyrənilməsinə başlamazdan əvvəl, uşaqların həmin mövzu haqqında nə bildiklərini və mövzu mənimsənildikdən sonra yeni nə öyrəndiklərini aydınlaşdırmaq məqsədilə istifadə edilir. Bu üsulun mahiyyəti ondan ibarətdir ki, tərbiyəçi-müəllim mövzunun məğzini ifadə edən əsas sözü uşaqlara təklif edir və onlar eşitdiklərini həmin sözlə əlaqədar assosiativ şəkildə xatırladıqları ilk sözləri deyirlər. Bu üsul tərbiyəçi-müəllimə məşğələdə əldə edilən nəticələri müqayisəli qiymətləndirməyə, uşaqlara isə təlim prosesində öz inkişaf dinamikasını dərk etməyə imkan verir.

Söz assosiasiyası təlim üsulunun praktik və elmi təhlili:

**Üsulun məqsədi:**

- Uşaqların əvvəlcədən mövzu haqqında nə bildiyini müəyyənləşdirmək;

- Yeni biliklərin şüurlu şəkildə mənimsənilməsini izləmək;

- Uşaqların təfəkkür və nitq aktivliyini stimullaşdırmaq.

**Nümunə:**

**Təlimin praktik gedişi:**

Mövzu: "Qış"

**1. Giriş** (İlkin qiymətləndirmə) - Tərbiyəçi-müəllim əsas sözü deyir və uşaqlardan o sözlə bağlı ilk ağlına gələn sözləri demələrini istəyir. Uşaq deyir: "qar", "soyuq", "palto", "Yeni il".

**2. Maraqlandırma və yeni bilik** - Mövzu ətrafında izah və təqdimat verilir (vizual material, oyun, söhbət) "Qar niyə yağır, niyə isti geyinirik?"və s.

**3. Yenidən assosiasiya** (Post-test) - Məşğələ sonunda tərbiyəçi-müəllim yenidən eyni sözü təklif edir, uşaqlar yenidən assosiasiyalarını paylaşır. İndi deyirlər: "termometr", "buz", "əriyir", "fırtına".

**4. Müqayisə və müzakirə** - Tərbiyəçi-müəllim ilkin və son assosiasiyaları müqayisə edir, uşaqlarla yeni öyrənilənləri müzakirə edir: “Əvvəllər yalnız “qar” dediniz, indi “buz” və “fırtına” da əlavə etdiniz”.

- **Elmi Əsaslandırma:**

- David Ausubelin mövcud biliklərlə bağlantı nəzəriyyəsi: Yeni biliklərin mənimsənilməsi mövcud biliklərlə əlaqələndirildikdə daha effektiv olur.

- Lev Vıqotski Söz assosiasiyası metodu uşağın daxili nitqini və təfəkkür dinamikasını aktivləşdirir. “Yaxın inkişaf zonası” bu mərhələdə genişlənir.

- Jan Piaje: Sözlərlə əlaqə qurmaq uşağın məntiqi düşüncə və kateqorizasiya bacarıqlarını inkişaf etdirir.

- Metakoqnitiv inkişaf: Uşaq öz öyrənmə prosesini dərk etməyə başlayır, “əvvəl nə bilirdim, indi nə bilirəm”in fərqini görür.

Niyə Məktəbəqədər dövr üçün uyğundur?

- Bu yaş dövründə uşaqlar söz ehtiyatını aktiv şəkildə genişləndirir;

- Assosiativ təfəkkür — əsas simvolik düşüncə mərhələsidir (4–6 yaş);

- Uşaqlar şifahi ifadə ilə öz fikirlərini sərbəst paylaşmağa təşviq edilirlər;

- Bu üsul onları fərdi, yaradıcı və reflektiv düşünməyə təşviq edir.

**6. Nağıletmə üsulu**




**7. Tap-tapmaca iş üsulu**




8. **Müzakirə -** İdeya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Problemi təhlil edərək həlli yolunu tapmaq, ünsiyyət bacarıqlarının formalaşdırılması, sual və replikalarla müzakirələrə qoşulmaq, fakt və hadisələrdən istifadə etməklə, əsaslandıraraq nitq nümayiş etmək, bilik və bacarıqları təcrübədə tətbiq etməkdir. Müzakirə qaydalarını əvvəlcədən demək, müzakirə prosesini inkişaf etdirən suallardan istifadə etmək müzakirəni tənzimləyir. Əsasən böyük və məktəbəhazırlıq qrupunda tətbiq olunur.

Müzakirə apararkən əvvəlcədən uşaqlara müzakirə qaydaları deyilir. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və uşaqların cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir. Müzakirədə mövzuya aid *"Nə baş verdi?, Nə üçün baş verdi?, Bu, başqa cür ola bilərdimi və necə?, Siz bu vəziyyətdə nə edərdiniz?, Sizin fikrinizcə, həmin obraz nə hiss etdi?, Siz bu şəraitdə nə hiss edərdiniz?, Bu, düz idimi?, Nə üçün?"* kimi suallardan istifadə olunur.

**Təlim üsulunun praktik mərhələləri**

**1. Motivasiya** - tərbiyəçi-müəllim ya da uşaq real və maraqlı situasiyanı danışır və ya şəkil göstərir – "Bir uşaq ağaca dırmaşdı və düşə bilmədi. Sizcə nə etməli idi?"

**2. Birlikdə tərtib olunan müzakirə qaydaları** uşaqlara xatırladılır və ya sadə dillə izah olunur: danışanın sözünü kəsməmək, diqqətlə qulaq asmaq. Qayda afişası şəkillərlə nümayiş etdirilir.

**3. Fəal müzakirə** aydınlaşdırıcı və istiqamətləndirici suallar əsasında qrup və ya cütlərlə fikir mübadiləsi – "Siz o uşağın yerində olsaydınız nə edərdiniz?, Başqa necə davrana bilərdi?"

**4. Fikirlərin paylaşılması** - uşaqlar cavablarını izah edir, **fakt və hadisələrdən istifadə etməklə** səbəblər gətirir və başqasının fikrinə münasibət bildirirlər – "Mən düşünürəm ki, dostuna kömək etməliydi. Çünki…"

**5. Nəticə və ümumiləşdirmə** tərbiyəçi-müəllim uşaqların cavablarını ümumiləşdirir, açıq suallarla müzakirəni yekunlaşdırır – "Sizcə, bu vəziyyətdə ən yaxşı həll yolu hansı idi və niyə?"

- Elmi Əsaslandırma

Vıqotskiyə görə müzakirə sosial ünsiyyət vasitəsilə "yaxın inkişaf zonasını" aktivləşdirir. Piajeyə görə isə uşaqlar situasiyaları təhlil edərək fikir bildirmək bacarığını təcrübədən öyrənirlər. Blum taksonomiyası baxımından müzakirə sualları idrakın bütün mərhələlərini (anlama, təhlil, dəyərləndirmə) əhatə edir. Sosial konstruktivizm fikir mübadiləsi vasitəsilə uşaqlar yeni bilikləri öz aralarında qururlar.

Nə üçün 4–6 yaşlı uşaqlar üçün məqsədəuyğundur?

- Nitq və fikrini izah etmə qabiliyyəti bu yaş dövründə sürətlə inkişaf edir;
- Uşaqlar artıq hadisələrə səbəb-nəticə əlaqəsi ilə yanaşma bacarığını qazanmağa başlayırlar;
- Müzakirə zamanı empati, gözləmə, səbirlə dinləmə və reaksiya vermə kimi sosial bacarıqlar güclənir;
- Əməkdaşlıq və fikir paylaşımı uşaqların emosional inkişafına və özgüvəninə dəstək olur;
- Mövzuya dair suallarla yönləndirilmiş müzakirələr uşaqda müstəqil fikir formalaşdırmağa zəmin yaradır.

**Təcrübədən nümunə:** "Qoğal nağılının səhnələşdirilməsi üçün ssenari yazılışında uşaqlarla müzakirə apararkən uşaqlar nağılın dəyişdirilməsi təklifini verdilər. "Nağılı niyə dəyişmək istəyirsiniz?", "Siz Qoğalın yerinə olsaydınız nə edərdiniz?", "Siz canavarın, tülkünün yerinə olsaydınız nə edərdiniz?, "Niyə belə edərdiniz?", "Başqa necə davrana bilərdi?" kimi suallarla müzakirə daha dolğun keçdi. Uşaqlar müxtəlif cavablar verdilər:

- "Qoğal dostlarını çağırsa, canavar onu tuta bilməzdi".
- "Məncə, Qoğal qorxmalı idi".
- "Niyə? Qorxaq Qoğal olardı onda"
- "Təhlükə bitdikdən sonra cəsur ola bilərdi".
- "Qoğal dostları ilə plan qura bilərdi".
- "Bəlkə icazəsiz evdən çıxmasaydı heç nə olmazdı".

  Müzakirə prosesində uşaqlardan biri nağılın sonluğunu dəyişdirməyi təklif etdi: "Qoğal canavarla dost olsun!"

Bu fikir digərlərində gülüş və suallar doğurdu: “Necə dost ola bilərdi? Canavar pis idi axı!”
Tərbiyəçi-müəllim müzakirəni istiqamətləndirmək üçün açıq sual verdi:
– “Pis görünən birisi niyə pis davranır deyə düşündünüzmü? Bəlkə, o da tək idi?”
Uşaqlar bu sual üzərində düşündülər, fərqli emosional reaksiyalar bildirdilər. Bu, ümumi müzakirələrə səbəb oldu və müzakirə uzandı. Tərbiyəçi-müəllim uşaqlara müzakirəni sabah davam etdirməyi təklif etdi.
Növbəti günün sonunda uşaqlar birgə qərar verdilər ki, səhnələşdirmədə Qoğal canavara, tülküyə, ayıya dostluq təklifi göndərir, lakin ehtiyatla davranır. Bu nəticə həm empatiya, həm də əxlaqi dəyərlərin formalaşması baxımından çox dəyərli oldu.

Qruplarla iş zamanı, tapşırıqların təqdimatında da müzakirə iş üsulundan istifadə edilir. Uşaqlar təqdimatları dinlədikdən sonra suallar verir, əlavələrini təqdim edirlər. Öz fikirlərini əsaslandıraraq söyləməyi öyrənirlər.

**Müzakirə üsulunun 4–6 yaşlı uşaqlarla tətbiqində çətinlik və risklər**
Məktəbəqədər yaş dövrü uşaqlarda təfəkkür, nitq və emosional inkişafın intensiv formalaşma mərhələsidir. Bu dövrdə müzakirə üsulu uşağın fərdi fikrinin ifadəsi, tənqidi düşünmə və sosial ünsiyyət bacarıqlarının inkişafı üçün mühüm əhəmiyyət kəsb etsə də, onun tətbiqi bir sıra psixopedaqoji çətinlik və risklərlə müşayiət oluna bilər.

- **Fikrini ifadə etməkdə çətinlik**

4–6 yaşlı uşaqların nitq və məntiqi ardıcıllıq bacarığı hələ tam formalaşmadığı üçün onlar fikirlərini aydın və məqsədyönlü şəkildə ifadə etməkdə çətinlik çəkə bilirlər. Müzakirə zamanı uşaqlar bəzən fikirlərini yarımçıq saxlayır, əlaqəsiz cavablar verir və ya başqalarının fikrini kəsərək danışırlar. Bu, uşaqlarda özünü ifadə etmə qorxusu və passivlik yarada bilər.

- **Emosional həssaslıq və münasibətlərin idarəsi**

Bu yaşda uşaqların emosional tənzimlənmə bacarıqları hələ sabit deyil. Müzakirə zamanı fikir müxtəlifliyi onların emosional reaksiyalarını (ağlama, inciyərək susma, qəzəblənmə və s.) artıra bilər. Uşaqlar başqalarının fikrini qəbul etməyə çətinlik çəkdikdə, müzakirə qarşıdurmaya çevrilə bilər. Tərbiyəçi-müəllimin bu prosesi idarə edə bilməməsi uşaqlar arasında mənfi emosional münasibətlərin formalaşmasına gətirib çıxara bilər.

- **Əxlaqi və məzmun baxımından anlaşılmazlıqlar**

Müzakirə üsulu nağıl və hekayə kimi bədii materiallarla işləyərkən uşaqların əxlaqi təsəvvürlərində qarışıqlıq yarada bilər. Məsələn, “Qoğal” nağılının müzakirəsi zamanı uşaqların “Qoğal canavarla dost olsun” kimi alternativ təklifləri onların “yaxşı” və “pis” anlayışlarını qarışdıra bilər. Əgər bu proses pedaqoji nəzarətsiz aparılarsa,

uşaqlarda mənəvi dəyərlərin təhrif olunması və davranış modellərində yanlışlıq yaranma riski ola bilər.

- **Diqqətin dağılması və diqqət müddətinin məhdudluğu**

4–6 yaşlı uşaqların diqqət saxlama müddəti qısadır. Uzunmüddətli və çoxşaxəli müzakirələr zamanı uşaqların diqqəti asanlıqla yayınır, onlar hərəkət ehtiyacına görə söhbətdən uzaqlaşa bilirlər. Bu isə müzakirənin məqsədyönlülüyünü azaldır və təlim prosesinin səmərəliliyinə mənfi təsir göstərir.

- **Bərabər iştirakın təmin olunmaması**

Müzakirə prosesində daha aktiv və ünsiyyətcil uşaqlar üstünlük qazana bilər, bu isə sakit və utancaq uşaqların fikirlərinin arxa planda qalmasına səbəb olur. Bu cür vəziyyətlər uşaqlar arasında özünəinam fərqini dərinləşdirə, sosial bərabərsizliyə gətirib çıxara bilər.

Ümumilikdə qeyd etmək lazımdır ki, müzakirə üsulu 4–6 yaşlı uşaqlarda tənqidi və yaradıcı təfəkkürün, sosial-emosional bacarıqların inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Lakin onun səmərəli tətbiqi üçün tərbiyəçi-müəllim:

- sualların məzmununu yaş xüsusiyyətlərinə uyğunlaşdırmalı;
- hər uşağın iştirakını təşviq etməli;
- emosional təhlükəsiz mühit yaratmalı;
- müzakirənin məqsədyönlülüyünü qorumağa diqqət yetirməlidir.

Beləliklə, müzakirə üsulunun məqsədyönlü, pedaqoji nəzarət altında tətbiqi uşaqlarda həm idrak, həm də mənəvi inkişaf üçün effektiv tədris vasitəsinə çevrilə bilər.

9. **Şaxələndirmə (klaster)** – tərbiyəçi-müəllim tərəfindən lövhədə və ya iş vərəqlərində dairə çəkilir və onun mərkəzində yapışdırılmış şəkil ilə bağlı söz və ya ifadələr söyləmək uşaqlara tapşırılır. Mərkəzdə yapışdırılmış şəkildən başlayaraq hər növbəti şəkil onunla əlaqəli xətlərlə birləşdirilir. Məşğələnin sonunda alınan şaxələndirməyə əsasən ümumiləşdirmə aparılır. Bu üsuldan məktəbəhazırlıq qruplarında istifadə daha effektiv ola bilər. "Şaxələndirmə" (klaster) metodu məktəbəqədər təhsildə həm idraki, həm də yaradıcı inkişafı dəstəkləyən effektiv və əyləncəli öyrənmə üsuludur. Gəlin, bu təlim metodunu həm elmi, həm də praktik cəhətdən təhlil edib, tərbiyəçi-müəllim üçün daha aydın və istifadəyə hazır formada izah edək.

- **Elmi əsaslandırma**

Şaxələndirmə (klaster) metodu beynin assosiativ düşünmə, analitik təhlil və yaradıcılıq bacarıqlarını stimullaşdırır. Bu metod aşağıdakı elmi prinsiplərə əsaslanır:

✓ Vizuallaşdırılmış düşünmə: Uşaqlar mövzu ilə bağlı düşüncələrini forma və xəttlərlə ifadə etməyi öyrənirlər.

- ✓ Mərkəzləşdirilmiş diqqət: Mərkəzdə yerləşdirilmiş şəkil uşaqların diqqətini cəmləşdirərək, əsas ideyanın ətrafında fikri genişləndirməyə kömək edir.
- ✓ Qruplaşdırma və əlaqələndirmə: Şəkillər və sözlər arasında əlaqələrin qurulması idraki proseslərin – təhlil, müqayisə və ümumiləşdirmə bacarıqlarının inkişafına xidmət edir.
- ✓ Metakoqnitiv bacarıqların formalaşması: Uşaqlar öz düşüncə proseslərini müşahidə etməyi və qiymətləndirməyi öyrənirlər.

**Praktik tətbiq nümunəsi:**

- **Hazırlıq mərhələsi:**

- Müəllim lövhədə və ya iş vərəqində dairə çəkir.
- Dairənin mərkəzinə bir şəkil yapışdırılır (məsələn, "alma" şəkli).
- Uşaqlardan həmin şəkillə əlaqəli söz və ifadələr söyləmək xahiş olunur: “qırmızı”, “dadlı”, “meyvə”, “ağac”, “şirə” və s.

- **İcra mərhələsi**

- Hər yeni fikir müvafiq xətlərlə mərkəzi şəkilə birləşdirilir.
- Müəllim yönəldici suallar verir: “Alma harada yetişir?”, “Nə vaxt yeyirik?”, “Başqa hansı meyvələr tanıyırsınız?”
- Əgər şaxələndirmə genişlənirsə, uşaqlar arasında qrup işləri ilə mövzu dərindən araşdırıla bilər.

- **Yekunlaşdırma**

- Şaxələndirmədəki fikirlərə əsasən ümumiləşdirilmiş nəticə çıxarılır.
- Məsələn: "Alma – faydalı meyvədir, təbiətdə yetişir, sağlamlıq üçün xeyirlidir."
- Uşaqlardan öz fikirlərini şifahi və ya vizual formada ifadə etmək istənilir.

Tərbiyəçi-müəllim üçün bu metod həm əyləncəli, həm də məqsədyönlü şəkildə pedaqoji fəaliyyəti zənginləşdirə bilər.




**Məktəbəqədər təhsildə iş üsullarının seçimi: Uşaqyönümlü yanaşma**

Məktəbəqədər yaş dövrü uşaqların psixo-fizioloji inkişafı və şəxsiyyət formalaşması baxımından mühüm mərhələdir. Bu yaş dövründə öyrənmə prosesinin effektivliyi, məhz onların yaş və fərdi xüsusiyyətlərinə uyğun seçilən təlim formaları və üsullarından əhəmiyyətli dərəcədə asılıdır. Tərbiyəçi-müəllim bu xüsusiyyətləri nəzərə alaraq, təlim prosesini şaxələndirməli və uyğun iş üsulları seçməlidir.

- Psixo-fizioloji və yaş xüsusiyyətlərinə dair nümunə:
- 1-3 yaş: uşaq ətraf aləmi hiss edir və öyrənir, eşitmə, həm də motor bacarıqlarını stimullaşdırır, uşağın öz tempinə uyğun inkişafı dəstəklənir, nitqin formalaşmasına təkan verilir.
- 3–4 yaş: emosional reaksiya güclüdür, diqqət qısa müddətlidir, hərəkətli oyunlara meyllidirlər.
- 5–6 yaş: təfəkkür formalaşır, təxəyyül genişlənir, sadə məntiqi əlaqələr qurmağa başlayırlar. Məktəbəhazırlıq dövrüdür, idraki bacarıqlar inkişaf edir, qrupla işləməyə hazır olurlar.

**Nəticə**

Məktəbəqədər təhsildə iş düzgün seçimi uşağın kompleks inkişafına xidmət edir. Tərbiyəçi-müəllim təlimi planlayarkən uşaqların yaş dövrü, fərdi bacarıqları və maraqlarını diqqət mərkəzində saxlamalı, bu xüsusiyyətlərə uyğun şəkildə təlim strategiyası formalaşdırmalıdır. Belə yanaşma tədris prosesini həm rəngarəng, həm də məqsədyönlü edir.

Məktəbəqədər təhsil müəssisələrində uşaq fəaliyyətinin düzgün təşkili vacibdir. Təhsil sistemində tətbiq olunan təlim forma və üsullarının  qeyd olunan yanaşmalar üzərində qurulması, uşaqların fərdi inkişaf imkanlarını genişləndirir. Öyrənmə prosesində iş üsullarının təlim məqsədinə, uşaqların fərdi xüsusiyyətlərinə, maraqlarına, ehtiyaclarına və s. tələblərə uyğun seçilməsi motivasiya, iştirak eləcə də nəticə baxımından prosesi səmərəli edir. Bu səbəbdən, müasir pedaqoji yanaşmalara əsaslanaraq optimal təlim üsullarının müəyyənləşdirilməsi yollarını, elmi və praktik baxımdan tövsiyyələrimi təcrübəmə əsaslanaraq yararlanmağınız üçün sizə təqdim edirəm.

**İstifadə olunan ədəbiyyat:**


- Məktəbəqədər təhsil proqramı (kurikulum) 2022.pdf
- Addım-addım - UŞAQYÖNÜMLÜ, DEMOKRATİK MƏKTƏBƏQƏDƏR TƏHSİL “Addım-Addım” yanaşması 2021
- Qaydalı oyunlar. 2018-Fərqanə Seyidli https://arti.edu.az/wp-content/uploads/2022/10/638_6041-qaydali-oyunlar-10-07-2019-pdf-2-1.pdf

- Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Təhsil İnstitutu - Məktəbəqədər təhsil: Tərbiyəçi-müəllimlər və metodistlər üçün stolüstü kitab 2019. Laləzar Cəfərova, Səbinə Rəhimova
- Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası https://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.pdf
- https://psycnet.apa.org/fulltext/2014-55719-001.html
- İstifadə olunan şəkillərin sayt linkləri: https://www.reddit.com/r/howto/comments/55atyk/how_to_make_12_different_shadow_puppets/?utm_source=share&utm_medium=web3x&utm_name=web3xcss&utm_term=1&utm_content=share_button
  “Cahan” körpələr evi və uşaq bağçasında fəaliyyətlərdən şəkillər.